# AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

**Azərbaycan Respublikası**
**Təhsil Nazirliyinin**
**1463 saylı 31 avqust 2012-ci il**
**tarixli əmri ilə təsdiq edilmişdir.**

# ALİ TƏHSİL PİLLƏSİNİN DÖVLƏT STANDARTI

# MAGİSTRATURA SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ

# T Ə H S İ L   P R O Q R A M I

**İxtisasın (proqramın) şifri və adı: 060805 – Sosial iş**

**BAKI – 2012**

## 1. Ümumi müddəalar

**1.1.** Magistratura səviyyəsinin **060805 – Sosial iş** ixtisası üzrə Təhsil Proqramı «Təhsil haqqında» Azərbaycan Respublikası Qanununa, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq olunmuş «Ali təhsil pilləsinin dövlət standartı və proqramı", «Magistratura təhsilinin məzmunu, təşkili və «magistr» dərəcələrinin verilməsi Qaydaları»nın tələblərinə, «Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) Təsnifatı»na və digər qanunvericilik aktlarına uyğun hazırlanmışdır.

**1.2.** Tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən ali təhsil müəssisələri **060805 – Sosial iş** ixtisası üzrə magistr hazırlığını bu Təhsil Proqramı ilə həyata keçirir.

**1.3.** Strukturda istifadə olunan işarələr:
**ÜK –** ümummədəni kompetensiyalar
**PK –** peşə kompetensiyaları

## 2. 060805 – Sosial iş ixtisasının xarakteristikası

**2.1.** Təhsil Proqramının mənimsənilməsinin normativ müddəti və məzunlara verilən elmi-ixtisas dərəcəsi:

| İxtisasın şifri və adı | Verilən elmi-ixtisas dərəcəsi | Əyani forma üzrə təhsil müddəti | Kreditlərin sayı |
|---|---|---|---|
| **060805 – Sosial iş**<br><br>**İxtisaslaşmalar:**<br>- *Sosial işin texnologiyası*<br>- *Əhalinin sosial müdafiəsi*<br>- *Əhalinin əmək və həyat şəraitinin yaxşılaşdırılması*<br>- *Həyat fəaliyyətinin müxtəlif sahələrində sosial iş* | Magistr | 2 il | 120 |

## 3. Məzunun ixtisas xarakteristikası və kompetensiyası

**3.1. Magistrin ixtisas xarakteristikası**

Magistr nəzəri prinsip və tədqiqat metodları haqqında ümumi təsvirə və geniş biliyə malik olmalı, peşə hazırlığı tələb edən elmi-tədqiqat işi aparmağa və pedaqoji fəaliyyətə hazır olmalı, peşəkar fəaliyyəti çərçivəsində gözlənilməz və mürəkkəb məsələləri həll etməyi bacarmalıdır.

**3.2. Proqramın mənimsənilməsi nəticəsində məzunun kompetensiyasına qoyulan tələblər.**

**3.2.1.** Məzun aşağıdakı ümummədəni kompetensiyalara (**ÜK**) yiyələnməlidir:

- mədəni ünsiyyət, intellektual və şəxsi keyfiyyətləri fəallaşdırmaq qabiliyyətinə **(ÜK-1);**
- sosial əhəmiyyətli layihələrin hazırlanması və həyata keçirilməsində, özünün peşə fəaliyyətinin qiymətləndirilməsi və planlaşdırılmasında hüquqi və etik normalardan istifadə etmək **(ÜK-2);**
- işgüzar ünsiyyət vasitəsi kimi Azərbaycan dili və xarici dillərdən sərbəst şəkildə istifadə etmək, peşəsi ilə bağlı mətnləri tərcümə və redaktə etmək **(ÜK-3);**
- əməkdaşlıq etməyə, münaqişələrin həllinə, sosial adaptasiyaya **(ÜK-4);**
- kollektivə rəhbərlik etmək, kollektivdə müstəqil işləmək **(ÜK-5);**
- peşə fəaliyyəti baxımından fəlsəfənin və sosial-humanitar elmlərin əsaslarına, yüksək idrakı qabiliyyətə malik olmaq **(ÜK-6);**
- müasir təhsil və informasiya texnologiyalarından istifadə etməklə yeni biliklərə yiyələnmək **(ÜK-7);**
- peşə fəaliyyətinin profilinə uyğun elmi-tədqiqat işlərini aparmaq, yeni tədqiqat metodlarından istifadə etmək **(ÜK-8);**
- sosial, elmi, etik problemlərə dair mühakimə yürütmək, müasir informasiya texnologiyalarından istifadə etmək, material toplamaq, onları təhlil etmək **(ÜK-9);**

**3.2.2.** Məzun aşağıdakı peşə kompetensiyalarına (**PK**) yiyələnməlidir:

***Elmi-tədqiqat sahəsi üzrə:***

- ictimai rəyin, sosial birliklərin öyrənilməsi ilə bağlı fundamental və tətbiqi tədqiqatlar aparmaq üçün sosial elmlərin metod və metodologiyası, müasir sosioloji nəzəriyyələr və sərbəst şəkildə onlardan istifadə **(PK-1);**
- müstəqil şəkildə sosial iş sahələri üzrə tətbiqi və fundamental tədqiqatların məqsəd və vəzifələrini qoymaq **(PK-2);**
- tədqiqatın məqsəd və vəzifələrinə uyğun olaraq yeni metodiki yanaşmalara, tədqiqat metodların, yeni nəzəriyyələrin əsasları **(PK-3);**
- auditoriyanın potensialını nəzərə almaqla tədqiqatın nəticələrini, elmi-texniki sənədləşməni, hesabatı hazırlayıb təqdim etmək **(PK-4);**

***İstehsalat-tətbiqi sahəsi üzrə:***

- analitik, konsaltinq və ekspertiza işlərinin həyata keçirilməsi zamanı humanitar və sosial elmlərin nəzəriyyə və metodlarından istifadə etmək **(PK-5);**
- sosial qrupların maraq və tələbatlarına uyğun olaraq aktual sosial iş problemlərini araşdırmaq və sosioloji tədqiqat metodlarından istifadə etmək **(PK-6);**
- sosial problemlərin həlli üzrə təklif və tövsiyələr işləyib hazırlamaq və onları əsaslandırmaq **(PK-7);**

***Təşkilati-inzibatçılıq sahəsi üzrə:***

- analitik fəaliyyəti, ekspertizanı, tədris prosesinin, elmi və elmi-tətbiqi tədqiqatların hazırlanması və həyata keçirilməsi **(PK-8);**
- kompleks sosial informasiyaları müasir metodlardan istifadə etməklə təhlil etmək **(PK-9);**
- qabaqcıl təcrübəni öyrənmək və tətbiq etmək **(PK-10);**
- peşəkar fəaliyyəti çərçivəsində gözlənilməz və mürəkkəb məsələləri həll etmək **(PK-11);**
- müvafiq fəaliyyət və metodları təklif etmək və planlaşdırmağa, onların qısa və uzunmüddətli nəticələrini təhlil etmək **(PK-12);**
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemləri yaradıcı şəkildə müəyyənləşdirmək və ortaya qoya bilməyə, konkret vaxt çərçivəsində və məhdud informasiya şəraitində onları həll edə bilmək **(PK-13);**
- fəaliyyət və təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı müvafiq texnologiya və metodları seçmək və onlardan istifadə edə bilməyə, həmçinin potensial nəticələri müəyyənləşdirmək və/və ya qiymətləndirə bilmək **(PK-14);**
- fəaliyyət və təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı şəxsi davranışlarını tənqidi şəkildə qiymətləndirmək **(PK-15);**
- fəaliyyət və təhsil sahəsi ilə bağlı problemləri Azərbaycan və bir xarici dildə şifahi və yazılı olaraq təqdim etmək və əsaslandırmağa, həmçinin mütəxəssis və qeyri-mütəxəssislərlə birgə müvafiq müzakirələrdə iştirak edə bilmək **(PK-16);**
- innovativ yanaşma tələb edən mürəkkəb və gözlənilməz şəraitlərdə müstəqil şəkildə fəaliyyət göstərmək **(PK-17);**
- təşkilat və ya qrupların strateji fəaliyyəti ilə bağlı məsuliyyət daşımaq **(PK-18);**
- mürəkkəb şəraitlərdə etik qaydalara uyğun şəkildə davrana bilməyə, şəxsi davranışların etik aspektləri, imkanları, məhdudiyyət və sosial rolunu anlamağa, fəaliyyət və təhsil sahəsi ilə bağlı məsələlərdə əsaslandırılmış qiymətləndirmə aparmaq **(PK-19);**
- davamlı təlim və peşəkar inkişafla bağlı şəxsi və digərlərinin ehtiyaclarını qiymətləndirməyə, həmçinin müstəqil təhsil üçün zəruri olan səmərəli metodlardan istifadə edə bilmək **(PK-20);**

***Pedaqoji sahə üzrə:***

- ali təhsilin bakalavriat pilləsində sosial iş ixtisasına aid fənləri tədris etmək **(PK-21);**
- elektron kitabxanalardan istifadə etməklə ixtisasın aktual məsələlərinə bələd olmaq **(PK-22);**
- tədris, təlim və ya digər üsullarla öz biliklərini başqasına ötürə bilmək **(PK-23).**

## 4. Peşə fəaliyyəti üzrə hazırlıq səviyyəsinə və təhsilin məzmununa qoyulan minimum tələblər

### 4.1. Peşə fəaliyyətinin xarakteristikası.

**4.1.1. 060101** - Azərbaycan dili və ədəbiyyatı müəllimliyi ixtisası üzrə magistrlərin peşə fəaliyyətinin əsas istiqamətləri:

- elmi-tədqiqat;
- pedaqoji;
- istehsalat-tətbiqi;
- təşkilati-inzibatçılıq və s.

**4.1.2. Hazırlıq səviyyəsinə qoyulan tələblər:**

***Elmi-tədqiqat sahəsi üzrə:***

- sosial gerçəkliyin real proseslərinin və obyektlərinin öyrənilməsində, elmi, təşkilati və tətbiqi məsələlərin həllində qabaqcıl ideyaları və texnologiyaları tətbiq etmək;
- sosial iş üzrə nəzəriyyə və praktikanı öyrənmək və tənqidi təhlil etmək;
- tədqiqat metodlarını, nəzəri-metodoloji yanaşmaları mənimsəmək, eləcə də material toplamağı, müvafiq informasiyaları təhlil etmək;
- peşə fəaliyyəti üzrə aktual problemləri müstəqil surətdə araşdırmaq, başlıca mövqeləri müəyyənləşdirmək və müqayisə etmək;
- seminarlar, konfranslar hazırlamaq və keçirmək, elmi nəşrləri redaktə etmək.

***Pedaqoji sahə üzrə:***

- ali təhsil müəssisələrində, sosial işin müxtəlif problemləri üzrə məşğələlər hazırlamaq və həyata keçirmək;

***İstehsalat-tətbiqi sahəsi üzrə:***

- müəssisə, təşkilat və digər birliklərin sosial inkişaf proqramının müvəffəqiyyətlə həyata keçirilməsi məqsədilə tədqiqatın normativ-metodiki və informasiya bazasını yaratmaq;
- sosial proqramların, layihələrin, tədbirlərin, normativ hüquqi aktların, metodiki materialların sosioloji ekspertizasını həyata keçirmək;

- müəssisə və təşkilatlarda sosial xarakterli aktual problemləri öyrənmək, onların konkret işçi qruplarında təzahür xüsusiyyətlərini öyrənmək, həllinə kömək istiqamətində tədbirlər hazırlamaq;
- müəssisə və təşkilatların kadrlarla təminatında iştirak etmək, kadr ehtiyacını proqnozlaşdırmağı, işçilərin peşəyönümü və peşə adaptasiyasına, peşə kompetensiyasının qiymətləndirilməsinə kömək etmək;

***Təşkilati-inzibatçılıq sahəsi üzrə:***
- sosial sferanın monitorinqini təmin edən informasiya mənbəyinin formalaşdırılmasının təhlilini və bu əsasda sosial işin səmərəliliyinin yüksəldilməsini təmin etmək;
- sosial işlə əlaqədar qurumların fəaliyyətinin ardıcıllığını, səmərəliliyini, nəticənin qiymətləndirilməsini təmin edən proqramlar hazırlamaq;
- elmi-tədqiqat müəssisələri və informasiya-analitik xidmət sahələri ilə əlaqə yaratmaq, elmi məsləhətləşmə, informasiya mübadiləsi aparmaq.

## 4.2. Təhsilin məzmununa qoyulan minimum tələblər

□ İxtisas üzrə fənn bölümləri, fənlərin kreditləri, onların mənimsənilməsinin nəticələri (bilik, bacarıq və vərdişlər baxımından) və qazanılması nəzərdə tutulan kompetensiyaların kodları.

| Fənn bölümünün kodu | Fənn bölümləri, onların mənimsənilməsinin nəticələri (bilik, bacarıq vərdişlər baxımından) | Fənn bölümləri üzrə kreditlərin sayı | Fənnin kodu və adı | Fənn üzrə kreditlərin sayı | Qazanılması nəzərdə tutulan kompetensiyaların kodları |
|---|---|---|---|---|---|
| **Təhsil hissəsi** | | | | | |
| **MHF – B00** | **Humanitar fənlər bölümü**<br>Bu bölümə daxil olan fənlərin öyrənilməsi nəticəsində magistr:<br>**bilməlidir:**<br>- xarici dildə neytral səs informasiyasının və ritminin özünəməxsusluğunu, sosial iş sahəsi üçün səciyyəvi olan tələffüzün üslubunun əsas xüsusiyyətlərini, ümumi və terminoloji səciyyəli 4000 tədris leksik vahidləri həcmində leksik minimumu, elmi üslubun əsas xüsusiyyətlərini, öyrənilən dil ölkələrinin mədəniyyəti və adət ənənələrini, nitq etiketi qaydalarını,<br>- Azərbaycanda ali təhsil sistemini, ali məktəblərin tələbə və müəllimlərin vəzifələrini, ali təhsil müəssisəsində təlim | 14 | **MHF – B01**<br>*Xarici dil*<br><br>**MHF – B02**<br>*Ali məktəb pedaqogikası*<br><br>**MHF – B03**<br>*Psixologiya*<br><br>**MHF – B04**<br>*Seçmə fənn** | **6**<br><br><br>**4**<br><br><br><br>**2**<br><br><br>**2** | **ÜK-1**<br>**ÜK-2**<br>**ÜK-3**<br>**ÜK-4**<br>**ÜK-5**<br>**ÜK-6**<br>**ÜK-7**<br>**ÜK-8**<br>**ÜK-9**<br>**ÜK-10** |

| | | | | | |
|---|---|---|---|---|---|
| | prosesi və təhsilin məzmununu, didaktika və onun müasir problemlərini, mühazirə və ona verilən müasir təbləri, tərbiyə və özünütərbiyə, rəhbərlik və idarəetmə məsələlərini elmi tədqiqat (müəllim və tələbə) işinin metodikasını;<br>- psixologiyanın obyekti, predmeti və metodlarını, psixologiyanın əsas istiqamətlərini, psixikanın quruluşunu, şüurluluq və qeyri-şüurluluğun qarşılıqlı münasibətini, tələbə psixologiyasını, iqtisadi biliklərin meydana gəlməsinin inkişaf mərhələlərini, tarixi genetik əsaslarını, elmi-metodoloji prinsiplərini, iqtisadi kateqoriya və qanunların məzmununu və fəaliyyət mexanizmlərini, müasir dövrdə sosial-iqtisadi inkişaf modellərini və əsas istiqamətlərini, fəlsəfənin predmetini onun dünyagörüşü rolunu və yerini ayırd etməyi, müasir şəraitdə biliklər sistemində fəlsəfənin əhəmiyyətinin artdığını, fəlsəfə ilə digər təbiət və sosial elmlər arasındakı münasibətləri dəqiq təsəvvür etməyi, qloballaşma şəraitində idrakın humanistləşməsi meyilinin güclənməsi kontekstində fəlsəfənin artmaqda olan əhəmiyyət kəsb etdiyini.<br><br>**bacarmalıdır:**<br>- sosial iş ixtisasına dair mətnləri oxumağı;<br>- ixtisasa dair internetdən götürülmüş mətnləri tərcümə etməyi;<br>- annotasiya, referat, tezis, tərcümeyi-hal və s. yazmağı.<br>- mühazirə mətni hazırlamağı;<br>- mühazirə oxumağı;<br>- seminar məşğələlərini planlaşdırmağı və aparmağı;<br>sosial iş sahəsində elmi-tədqiqat işini yerinə yetirməyi, bununla bağlı fərziyyələr irəli sürməyi;<br>- eksperiment aparmağı və nəticələri tətbiq etməyi;<br>- hər bir tələbəyə psixoloji baxımdan fərdi qaydada yanaşmağı, tələbələri eksperimentə cəlb etməyi və s.<br>- klassik və neoklassik iqtisadi məktəblərin, cərəyanların müddəaları və ideyalarının qarşılıqlı surətdə əlaqələndirilməsini; | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | - müasir dövrdə iqtisadi qanunların fəaliyyət mexanizmlərindən, tələb və prinsiplərindən, təsərrüfatçılıq mexanizmlərindən, sosial-iqtisadi inkişaf strategiyasından səmərəli istifadə olunmasını və onların hər birinin spesifik cəhətlərini, xüsusiyyətlərini dərk etməyi.<br>- maddi və mənəvi varlıq növlərinin vəhdəti və özünəməxsusluqlarını dərk etməyi;<br>- varlığın universal əlaqələrini, onların təsnifatını, növlərini ayırd etməyi<br>- inkişaf anlayışının mahiyyətini və əsas modellərini<br>- inkişafın universal qanunlarını və formalarını<br>- dünyanın dərk olunması formalarını, onların spesifikliklərini üzə çıxarmağı.<br><br>**yiyələnməlidir:**<br>- xarici dildə oxumaq və yazmaq vərdişlərinə<br>- ali təhsil müəssisəsində tədris və tədqiqat işlərini aparmağa<br>- tələbələrə pedaqoji və psixoloji yanaşma keyfiyyətlərinə;<br>- iqtisadi nəzəriyyənin predmetinə, tədqiqat obyektinə, metodlarına, funksiyalarına və inkişaf qanunauyğunluqlarına və müstəqil milli iqtisadiyyatın formalaşması və inkişaf meyllərinə.<br>- elmi-fəlsəfi dünyagörüşünün cəmiyyətin və insanın normal həyat fəaliyyəti üçün zərurət olduğunu anlamağa;<br>- dünya – insan münasibətlərinin sisteminin ümumi – nəzəri əsaslarını və konkret tərkib hissələrini adekvat mənalandırmağa;<br>- idrak nəzəriyyəsinin mahiyyətinə, onun növlərinə, subyektinə və obyektinə dair səhih biliklərə. | | | | |
| **MİF – B00** | **İxtisas (ixtisaslaşma) fənləri bölümü bilməlidir:**<br>Bu bölümə daxil olan fənlərin öyrənilməsi nəticəsində magistr **bilməlidir:**<br>- sosial iş elminin hazırkı vəziyyətini, onun inkişaf meyllərinin perspektivlərini;<br>- sosial iş sahəsinin inkişafı tarixini və təkamülünü, sosial iş nəzəriyyəsinin formalaşmasını və müxtəlif metodoloji | 76 | **MİF – B01**<br>*Sosial işə giriş*<br><br>**MİF – B02**<br>*Sosial işin nəzəriyyəsi və təcrübəsi*<br><br>**MİF – B03**<br>*İnsanın sosial* | **4**<br><br><br>**2**<br><br><br><br><br>**4** | **PK – 1**<br>**PK – 2**<br>**PK – 3**<br>**PK – 4**<br>**PK – 5**<br>**PK – 6**<br>**PK – 7**<br>**PK – 8**<br>**PK – 9**<br>**PK – 10** |

| | | | | | |
|---|---|---|---|---|---|
| | yanaşmaların fərqli cəhətlərini;<br>- informasiya cəmiyyəti şəraitində sosial proseslərin tənzimlənməsini və optimal idarə olunmasını;<br>- sosial prosesləri düzgün təsəvvür etməyi, onların göstəricilərini qiymətləndirməyi və idarə etmək üçün proqnozların verilməsini;<br>- konkret obyektin inkişafı dinamikasını araşdırmaq, sosial tələblərə uyğun onun başlıca problemlərini müəyyən etməyi;<br>- sosial iş üzrə tədqiqat metodları və nəzəriyyəsi üzrə ixtisas və peşə fəaliyyəti sahəsində bilik və bacarıqların, qabiliyyətlərin tətbiqini;<br>- sosial işin müxtəlif sahələri üzrə elmi tədqiqatların məqsəd və vəzifələrini müstəqil şəkildə müəyyənləşdirməyi, informasiya texnologiyalarından, müasir aparatura və vəsaitlərdən istifadə edərək xarici və yerli təcrübəyə əsaslanaraq tədqiqat aparmağı;<br>- auditoriyanın potensial imkanlarını nəzərə alaraq tədqiqat işinin nəticələrinin, elmi hesabatların, elmi-texniki sənədlərin hazırlanması qaydalarını;<br>- ictimai rəyin, sosial birliklərin öyrənilməsi ilə bağlı fundamental və tətbiqi tədqiqatlar aparmaq üçün sosial elmlərin metod və metodologiyasını, müasir sosioloji nəzəriyyələr və onların tətbiqi imkanlarını;<br>- müstəqil şəkildə sosial işin sahələri üzrə konkret tədqiqatların məqsəd və vəzifələrini müəyyənləşdirməyi;<br>- tədqiqatın məqsəd və vəzifələrinə uyğun olaraq yeni metodiki yanaşmalar, tədqiqat metodları, yeni nəzəriyyələrin əsasların;<br>- auditoriyanın potensialını nəzərə almaqla tədqiqatın nəticələrini, elmi-texniki sənədləşməni, hesabatı hazırlayıb təqdim etməyi.<br><br>**bacarmalıdır:**<br>- sosial və humanitar elmlərin nəzəriyyə və metodlarından istifadə etməyi;<br>- sosial qrup və birliklərin maraqlarını nəzərə almaqla sosial problemlərin həlli üçün təklif və tövsiyələrin hazırlanmasında iştirak etməyi;<br>- müəssisə və təşkilatlarda sosial xarakterli aktual problemləri öyrənməyi, | | *mühitdə davranışı*<br><br>**MİF –B04**<br>*İxtisaslaşmaya ayrılan fənlər***<br><br>**MİF – B05**<br>*Seçmə fənn** | <br><br><br>**42**<br><br><br><br><br>**24** | **PK – 11**<br>**PK – 12**<br>**PK – 13**<br>**PK – 14**<br>**PK – 15**<br>**PK – 16**<br>**PK – 17**<br>**PK – 18**<br>**PK – 19**<br>**PK – 20**<br>**PK – 21**<br>**PK – 22**<br>**PK – 23** |

| | | | | | |
|---|---|---|---|---|---|
| | müstəqil şəkildə tədbirlər hazırlamağı;<br>- normativ sənədlərə uyğun olaraq elmi-tədqiqat layihələri hazırlamağı, analitik təhlil aparmağı;<br>- analitik qərarların, ekspertiza nəticələrinin və tövsiyələrinin hazırlanması üçün məlumatları işləyib təhlil etməyi;<br>- marketinq xidmətinin təşkilini, ictimai rəyin öyrənilməsi sahəsində layihələrin planlaşdırılması və həyata keçirilməsini.<br>- müstəqil şəkildə metodikanı, normativ sənədləri işləməyi;<br>- müxtəlif proses və münasibətlərə dair sosial göstəricilərin optimallaşdırılması, qiymətləndirilməsi ilə bağlı tədqiqatları işləməyi və həyata keçirməyi;<br>- ictimai rəyin öyrənilməsi ilə bağlı layihələrin nəticələrinin işlənməsi, reallaşması və yayılmasını;<br>- marketinq xidmətləri üçün tövsiyələr hazırlamağı, müxtəlif auditoriyaları marketinqlə bağlı məlumatlandırmağı, elmi-metodiki işlərin təminatını;<br>- analitik, konsaltinq və ekspertiza işlərinin həyata keçirilməsi zamanı humanitar və sosial elmlərin nəzəriyyə və metodlarından istifadə etməyi;<br>- sosial qrupların maraq və tələbatlarına uyğun olaraq aktual sosial problemləri öyrənərkən sosioloji tədqiqat metodlarını tətbiq etməyi;<br>- sosial problemlərin həlli üzrə təklif və tövsiyələri hazırlayarkən sosioloji biliklərdən istifadə etməyi.<br><br>**yiyələnməlidir:**<br>- müəssisə və təşkilatların kadrlarla təminatında iştirak etməyi, kadr ehtiyacını proqnozlaşdırmağı, işçilərin peşəyönümü və peşə adaptasiyasına kömək etməyi, peşə kompetensiyasının qiymətləndirilməsinə;<br>- müəssisə, təşkilat və digər birliklərin sosial inkişaf proqramının müvəffəqiyyətlə həyata keçirilməsi məqsədilə tədqiqatın normativ-metodiki və informasiya bazasını yaratmağa;<br>- sosial birliklərin (əmək kollektivi, ərazi üzrə birliklər) sosial-iqtisadi inkişafı baxımından sosial qrupların maraq və tələbatlarının uyğunlaşdırılması yolları və | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | vasitələrinin optimallığını təmin etməyə;<br>-sosial proqramların, layihələrin, tədbirlərin, normativ hüquqi aktların, metodiki materialların sosioloji ekspertizasını işləməyə və həyata keçirməyə;<br>- analitik fəaliyyətə, tədris prosesində elmi və elmi-tətbiqi tədqiqatların hazırlanmasına və həyata keçirilməsinə;<br>- kompleks sosial informasiyaları müasir metodlardan istifadə etməklə təhlil etməyə. | | | | |
| **MET – B00** | **Elmi-tədqiqat işləri**<br>Magistr elmi-tədqiqat işini yerinə yetirməklə aşağıdakıları **bilməli** və **bacarmalıdır:**<br>- elmi-tədqiqat işlərini planlaşdırmağı;<br>- tədqiqat mövzusu seçməyi;<br>- ədəbiyyat siyahısının tərtibini;<br>- elmi-tədqiqat işi aparmağı;<br>- elmi-tədqiqat işinin nəticələrini təhlil etməyi, onun digər müəlliflərin nəticələri ilə müqayisə etməyi;<br>-alınmış nəticələrin praktiki əhəmiyyətini və onun tətbiqi imkanlarını müəyyənləşdirməyi;<br>- elmi-tədqiqat işinin gələcəkdə davam etdirilməsi imkanlarını müəyyənləşdirməyi;<br>- yerinə yetirilmiş tədqiqat işinin müdafiəsini;<br>- elmi-tədqiqat işinin nəticələrinin çap üçün hazırlanmasını;<br>- elmi-tədqiqat və elmi-pedaqoji təcrübələrdə iştirak etməyi, onların nəticələrini ümumiləşdirməyi və magistrlik dissertasiyasında istifadə etməyi və s. | | Elmi-tədqiqat təcrübəsi<br><br>Elmi-pedaqoji təcrübə<br><br>Magistrlik dissertasiyasının hazırlanması və müdafiəsi | **6**<br><br>**6**<br><br>**18** | **PK – 1**<br>**PK – 2**<br>**PK – 3**<br>**PK – 4** |
| | **Kreditlərin ümumi cəmi** | **120** | | **120** | |

**Bütün bölümlərdə seçmə fənlər müvafiq səriştələrə (kompetensiyalara) uyğun ali təhsil müəssisələri tərəfindən müəyyənləşdirilir.* 

***İxtisaslaşmalar üzrə səriştələr (kompetensiyalar) və buna müvafiq fənlər ali təhsil müəssisələri tərəfindən müəyyənləşdirilir.*

**4.3.** İxtisas üzrə magistr təhsil proqramının yerinə yetirilməsi müddəti:
ümumi həftələrin sayı – 94
o cümlədən:
- nəzəri təlim – 45 həftə

- təcrübələr (elmi-tədqiqat və elmi-pedaqoji) – 8 həftə
- imtahan sessiyaları – 15 həftə
- magistrlik dissertasiyasının hazırlanması və müdafiəsi – 12 həftə
- tətillər – 14 həftə

## 5. Maddi-texniki, tədris bazası və kadr potensialı

**5.1.** Ali təhsil müəssisəsinin **060805 – Sosial iş** ixtisasının təhsil proqramına müvafiq hazırlanmış tədris planında nəzərdə tutulan fənlər üzrə dərslərin aparılması, təcrübələrin keçirilməsi və elmi-tədqiqat işlərinin yerinə yetirilməsi üçün müvafiq İKT ilə təchiz olunmuş kabinet və laboratoriyalar, kompyuter sinifləri, emalatxanalar və s. ilə təmin olunmuş maddi-texniki bazası olmalıdır. Təhsilalanların ali təhsil müəssisəsinin lokal şəbəkəsinə, internetə, məlumat bazalarına, elektron kitabxanalarına, axtarış sistemlərinə çıxışı təmin edilməlidir.

**5.2.** Fənlərin tədrisi, bir qayda olaraq, ali təhsil müəssisələrinin elmi dərəcəsi və ya elmi adı olan professor-müəllim heyəti tərəfindən aparılır. Bu fəaliyyətə həmin şərtləri ödəyən digər müəssisə və təşkilatlarda çalışan şəxslər cəlb oluna bilər.

**5.3.** Magistrlik dissertasiyalarına elmi rəhbərlik, bir qayda olaraq, həmin təhsil müəssisəsində çalışan professor-müəllim heyətinin elmi adı və ya elmi dərəcəsi olan nümayəndələri və ya həmin şərtləri ödəyən digər müəssisə və təşkilatlarda çalışan şəxslər tərəfindən həyata keçirilir.

## 6. Tədris prosesinin forma və metodları

**6.1.** Magistrantın nəzəri təlimi və pedaqoji hazırlığı mühazirə, məşğələ, seminar, məsləhət, sərbəst iş, pedaqoji təcrübə və s. formalarda həyata keçirilir.

**6.2.** Magistr hazırlığı üzrə tədris prosesində şifahi şərh, müsahibə, interaktiv təlim, müstəqil iş, diskussiya, dəyirmi masa, illüstrasiya, tədqiqatçılıq, laboratoriya və praktik iş və digər metodlardan istifadə edilə bilər.

**6.3.** **060805 – Sosial iş** ixtisası üzrə magistr hazırlığında elmi-tədqiqat və elmi-pedaqoji təcrübələr nəzərdə tutulur (təcrübələrin məqsəd və vəzifələri ixtisasdan asılı olaraq müəyyənləşdirilir). Təcrübələr növündən asılı olaraq müvafiq təşkilatlarda, yaxud ali məktəblərin kafedra və laboratoriyalarında keçirilə bilər.

## 7. Yekun dövlət attestasiyasına qoyulan tələblər və qiymətləndirmə

**7.1.** Yekun dövlət attestasiyası magistrlik dissertasiyasının müdafiəsindən ibarətdir. Dissertasiyanın məzmununa, həcminə, strukturuna qoyulan tələblər və onun

müdafiəsi qaydaları Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən müəyyənləşdirilir.

**7.2.** Təhsilalanların biliyinin qiymətləndirilməsi Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş qaydalar əsasında həyata keçirilir.

**7.3.** Yekun Dövlət Attestasiyası nəticəsində məzunlara magistr ali elmi-ixtisas dərəcəsi və dövlət nümunəli diplom verilir.

**Razılaşdırılmışdır:**

| | |
|---|---|
| Azərbaycan Respublikası Təhsil<br>Problemləri İnstitutunun<br>direktoru | Azərbaycan Respublikası Təhsil<br>Nazirliyinin Ali və orta ixtisas<br>təhsili şöbəsinin rəisi |
| ________________A.Mehrabov | ______________İ.Mustafayev |
| «____» ___________ 2012-ci il | «____»__________2012-ci il |
| Səhiyyə, rifah və xidmət ixtisasları<br>qrupu üzrə Dövlət Təhsil<br>Standartları hazırlayan işçi<br>qrupun sədri | Azərbaycan Respublikası Təhsil<br>Nazirliyinin Elmi Metodiki-Şurasının<br>«Sosial-siyasi elmlər»<br>bölməsinin sədri |
| ________________ N.Qasımov | __________________ M.Əliyev |
| «___» ___________ 2012-ci il | «___» _______________ 2012-ci il |